# *Petru Antone TOMASİ:* "Korsika xalqının və onun hüquqlarının tanınmasını tələb edəcəyik"

**"Bu gün Fransa polisinin iki fəalımıza və onların ailələrinə qarşı törətdiyi zorakılığa cavab olaraq buradayıq. Bu fəallar siyasi və peşə fəaliyyətlərində vicdanlı və hörmətli şəxslərdir. Polisin rəzil və qəbuledilməz əməllərinə etirazımızı bildirmək üçün mətbuat konfransı keçirdik".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Corsica Libera" partiyasının sabiq sözçüsü Petru Antone Tomasi səsləndirib.

O bildirib ki, polisin "Nazione" siyasi partiyası fəallarına qarşı həyata keçirdiyi repressiya bu siyasi hərəkat yaranandan iki gün sonra və daxili işlər naziri Jerald Darmaninin Korsikaya səfərindən bir neçə gün əvvəl baş verib. "Fransa hökumətinin hər hansı bir üzvünün səfərindən bir neçə gün əvvəl və ya müstəqillik tərəfdarlarının təşəbbüslərindən sonra polisin belə zorakılıqlar törətməsi sistemli hal alıb. Bu onu göstərir ki, Fransada hakimiyyət bölgüsü mifdir və hər şey dövlətin əlindədir. Fransa dövlətinin əmri ilə polis "Nazione" siyasi cərəyanını neytrallaşdırmaq istəyir. "Nazione" bu gün Parisin həyata keçirdiyi strategiyaya qarşıdır", - deyə Petru Antone Tomasi qeyd edib.




Diqqətə çatdırılıb ki, ötən həftə yeni yaranmış "Nazione" partiyasının ümumi yığıncağında bəyan edildiyi kimi, onlar ölkədə fəaliyyətlərini genişləndirəcəklər və J.Darmaninin səfəri zamanı etiraz aksiyası üçün səfərbər olacaqlar. İlk növbədə repressiyanın əleyhinə olduqlarını deyəcək, Korsika xalqının və onun hüquqlarının tanınmasını tələb edəcəklər.

Azərbaycan.- 2024.- 4 fevral, № 24.- S.6.